**Sivil, demokratik Azərbaycanın beynəlxalq münasibətlər müstəvisində rolu və nüfuzu durmadan artır. Müasir dünyada az sayda ölkələr belə yüksək inam və etimada nail ola bilir. Buna səbəb Prezident İlham Əliyevin müdrik idarəçiliyi ilə son illər ərzində ölkəmizdə siyasi, iqtisadi, mədəni və hərbi sahələrdə əldə edilən bir-birindən parlaq uğurlardır. Azərbaycan bu gün öz tarixinin ən şanlı və şərəfli dönəmini yaşayır. Azərbaycan xalqı müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin yüksək qətiyyəti, rəşadətli Azərbaycan Ordusunun qeyri-adi şücaəti sayəsində öz torpaqlarını mənfur düşməndən azad etmişdir. Bu, elə bir zəfərdir ki, xoş sorağı dünyanın hər yerində eşidilir.**

Bu parlaq qələbə düşmənlərimizi xar, dostlarımızı isə məmnun etmişdir. Azərbaycan əsgərinin qorxmazlığı və yenilməzliyi barədə indi bütün dünya fəxrlə danışır. Möhtəşəm Qələbənin tarixi memarı Prezident İlham Əliyev bu il martın 5-də keçirilən Yeni Azərbaycan Partiyasının VII qurultayındakı çıxışında Vətən müharibəsində xalqımızın parlaq Qələbəsindən danışarkən demişdir: "Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir. Bu gün bizim Qələbəmiz dünyanın aparıcı ölkələrinin aparıcı ali məktəblərində öyrənilir".

# Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz sahibidir



İkinci Qarabağ müharibəsinin nəticələri indi bölgədə yeni reallıqlar yaratmışdır. Yaxın aylar, illər ərzində "Zəngəzur nəqliyyat dəhlizi" kimi çox mühüm bir layihənin həyata keçirilməsi gözlənilir. Bu və başqa layihələr bölgədə və geniş mənada Avrasiya məkanında yeni əməkdaşlıq formatları yaratmışdır. Azərbaycanın Qarabağdakı möhtəşəm zəfəri, faktiki olaraq region ölkələrinə və onların xalqlarına inkişaf və tərəqqi üçün yeni imkanlar açmışdır.

Prezident İlham Əliyev bu barədə danışarkən fəxrlə qeyd etmişdir ki, bu gün bu layihələr ətrafında birləşən və bu layihələri bizimlə bərabər icra edən ölkələrin sayı artmaqdadır. Bu, istər-istəməz həmin ölkələr arasında, hətta əvvəlki dövrlərdə bir-biri ilə o qədər isti münasibətləri olmayan ölkələr arasında da əməkdaşlığı labüd edir. Bu gün həqiqətən dünyanın bir çox aparıcı ölkələri Azərbaycan dövlətinin xarici siyasət kursuna yüksək qiymət verir və bu qiymət həqiqəti tam əks etdirir.

Bəli, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan dövləti həm siyasi, həm də iqtisadi sahədə dayanıqlı inkişafa nail olmuşdur. Bu, olduqca qürurverici məqamdır ki, Azərbaycan qarşısında duran əsas məsələni -- ərazi bütövlüyünü bərpa etməklə, beynəlxalq aləmdə çox böyük nüfuz və hörmət sahibi olan bir ölkəyə çevrilmişdir.

Bu gün Azərbaycanın ictimai-siyasi həyatında sabitlik, xalq ilə dövlət arasında sarsılmaz birlik, harmoniya hökm sürür. Məhz bu səbəbdən Azərbaycanla sıx əlaqələr qurmaq, əməkdaşlıq etmək istəyən ölkələrin sayı durmadan artır. Prezident İlham Əliyev YAP-ın VII qurultayındakı çıxışı zamanı demişdir: "Baxın, indi Azərbaycana xaricdən nə qədər investisiyalar qoyulur. Bunun əsas amili daxili sabitlikdir. "Doing Business" proqramında, biz yaxşı yerlərdəyik. İndi bizim yerimizi də artırıblar və qabaqcıl ölkələr sırasındayıq. Ermənistana bir manat qoyan var? Yox. Adam gərək dəli olsun oraya pul qoysun. Heç xaricdə yaşayan ermənilər də pul qoymurlar. Nə üçün? Çünki hərc-mərclik var, aləm qarışıb, sabitlik yoxdur, lider yoxdur, etibar edə biləcəyi bir şəxs yoxdur ki, investor gəlsin desin, bəli, mən inanıram bu dövlətə, bu dövlət başçısına, mən vəsait qoyuram".

Bu gün dünyada, Ermənistan istisna olmaqla, elə bir ölkə yoxdur ki, Azərbaycanın onunla hansısa problemi olsun. Rəsmi Bakı son illər Avropa İttifaqı ilə sıx əlaqələr qurmuşdur. Bu quruma üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalanıb. Azərbaycandan başqa "Şərq tərəfdaşlığı" ölkələrindən heç bir ölkə Avropa İttifaqına üzv olan bu qədər çox sayda ölkə ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalamayıb.

Dövlətimizin xarici siyasəti çoxşaxəlilik prinsipi üzərində qurulmuşdur. Azərbaycan digər beynəlxalq təşkilatlarla da sıx əlaqələr qurmağa çalışır və bu istiqamətdə nəzərəçarpan uğurlar əldə edir. Son illər Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı ilə Azərbaycanın əlaqələri yüksələn xətt üzrə inkişaf edir.

Məlumdur ki, hazırda Azərbaycan Qoşulmama Hərəkatına rəhbərlik edir. Qoşulmama Hərəkatı üzvlərinin sayına görə ikinci təsisatdır. Bu qurum Azərbaycana İkinci Qarabağ müharibəsi günlərində böyük dəstək verib. Prezident İlham Əliyev bu dəstəyi yüksək qiymətləndirmişdir: "Bizə qarşı müharibə dövründə BMT Təhlükəsizlik Şurasında çirkin kampaniya aparılan zaman qətnamə hazırlanırdı. Kim onu pozdu? Qoşulmama Hərəkatına üzv ölkələr, onlar bizi müdafiə etdilər. Bizim bu təşkilata rəhbərlik etməyimiz formal rəhbərlik deyil. Biz bu təşkilat üzvlərini müdafiə edirik, biz onlara kömək göstəririk, biz COVID-lə bağlı onlara yardım etmişik, biz heç kimdən çəkinmədən onların haqq səsini müdafiə edirik. Onlar da bizi müdafiə etdilər. Beləliklə, bu qətnamə qəbul edilmədi".

*(ardı 9-cu səhifədə)*

# Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz sahibidir

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan fəal və prinsipial xarici siyasət kursu həyata keçirir.

Rəsmi Bakı COVID-19 pandemiyasına qarşı mübarizə ilə bağlı Qoşulmama Hərəkatının və Türk Şurasının zirvə görüşlərini təşkil etmişdir. Bəşəriyyəti çənginə alan bu məsələ ilə bağlı Azərbaycan Prezidentinin təşəbbüsü ilə ötən ilin dekabrında BMT-nin xüsusi sessiyası keçirilmişdir. Bütün bu mühüm tədbirlər, əlbəttə, Azərbaycanın sanbal, siqlət və nüfuzunu artırmışdır.

İkinci Qarabağ müharibəsində Azərbaycanın qətiyyətli və prinsipial mövqeyinə qarşı çıxan bəzi qüvvələr də var idi. Bəzi Qərb dövlətləri bu sahədə "canfəşanlıq" edirdilər. Hər şey göz qabağında idi. Onlar erməni lobbisinin təsiri və təzyiqləri altında ölkəmizin Qarabağda apardığı ədalətli mübarizəsinə kölgə salmağa cəhd edirdilər. Lakin niyyətlərinə çata bilmədilər. Çünki, haqlı deyildilər, beynəlxalq hüququn əleyhinə gedərək işğalçı, təcavüzkar dövləti himayə edirdilər.

Azərbaycan dövləti isə xalqı ilə əl-ələ verib beynəlxalq təşkilatların görə bilmədiyi, daha doğrusu, görmək istəmədiyi missiyanı 44 gün ərzində həyata keçirdi. Qarabağda, faktiki olaraq ədalət zəfər çaldı. Ermənistan savaş dönəmində olduğu kimi, müharibədən sonra da xalqımıza qarşı çirkin kampaniya aparmaqda davam edir.  Bunlar əbəs cəhdlərdir. Azərbaycan dövlətinə qarşı belə təzyiqlərin heç bir faydası yoxdur.

Aprelin 13-də ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda Prezident İlham Əliyev bu barədə deyib: "Biz qəhrəmanlıq və cəsarət nümayiş etdirdik, axıra qədər getdik və bizi heç kəs dayandıra bilməzdi. Bilirsiniz ki, müxtəlif istiqamətlərdən bizi dayandırmaq üçün çoxlu cəhdlər oldu. Ancaq biz sona qədər getdik".

Ermənistandan fərqli olaraq, Azərbaycan dövləti beynəlxalq məsələlərdə hər zaman qətiyyətli mövqe ortaya qoyub. Bakı ilə hansısa xarici mərkəzin diktə dilində danışması mümkün deyil. Bu gün Bakı beynəlxalq tədbirlərin mərkəzinə çevrilib, hətta Rusiya, ABŞ və NATO komandanlarının yüksəksəviyyəli görüşləri paytaxtımızda keçirilir.

Müstəqillik böyük nemət olduğu kimi, müstəqil siyasət aparmaq da dövlətin başucalığıdır. Belə siyasət hər bir ölkəyə hörmət və nüfuz gətirir. Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev çağdaş dünya siyasətində ən görkəmli dövlət xadimlərindən sayılır. Azərbaycan dövlətinin lideri bu gün dünya siyasətində haqqın, ədalətin rəmzi kimi qəbul edilir.

Azərbaycanın həm daxildə, həm də xaricdə uğurları bundan sonra daha da artacaq. Çünki Azərbaycan dövləti və onun lideri Prezident İlham Əliyev xalqının milli maraq və mənafelərinə uyğun düzgün və ədalətli siyasət həyata keçirir. Bu siyasət həm də bəşəri, humanist dəyərlərə söykənir. Bunu bütün dünya görür və müşahidə edir. Nəticədə, dünyanın hər yerində xalqımıza və dövlətimizə olan rəğbət və hörmət günbəgün artır.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 5 may.- S.1;9.